**UOT: 342.565**
https://doi.org/10.59849/2409-4838.2026.2.79

# KONSTİTUSİYA NƏZARƏTİ İNSTİTUTUNUN YARANMASI BEYNƏLXALQ HÜQUQ ARENASINDA MİLLİ KİMLİYİN TƏZAHÜRÜ KİMİ

**İlqar Elbrus oğlu Məmmədli**
Milli Aviasiya Akademiyası, Bakı, Azərbaycan
memmedliilqar52@gmail.com

*Milli kimliyi təşkil edən dəyərlərə bir qayda olaraq konstitusiya və hüquqi əhəmiyyət verilir. Onlar müvafiq hüquqi müdafiə ilə təmin olunurlar, buna görə də konstitusiyaşünaslar "konstitusiya kimliyi" anlayışından istifadə edirlər. Bu fenomeni bir tərəfdən konstitusiya normaları, yazılmamış prinsiplər, məhkəmə doktrinaları ilə şifrələnmiş bir xalqın mədəni kodu, digər tərəfdən konstitusiyanın dəyişdirilməsi çətin olan bölmə və müddəaları kimi başa düşmək olar. Buna əsaslanaraq, dövlətlərin milli kimliyinin vacib təzahürlərindən biri də konstitusiya nəzarəti institutlarının fəaliyyəti hesab olunur.*

*Müasir dünyada əsas məqsədi demokratiya və insan hüquqlarını qorumaq, onların funksionallığını təmin etmək olan konstitusiya nəzarəti qlobal əhəmiyyət kəsb edən sistemdir, institutdur. Bu sistemin ölkə səviyyəsində spesifikliyini konstitusiya nəzarətini həyata keçirmək səlahiyyətinə malik olan orqanda və üstəlik, bu orqana verilmiş səlahiyyətləri həyata keçirmək səlahiyyətinə malik olan konkret şəxslərdə görmək mümkündür. Bu baxımdan, bir çox Avropa ölkələrində olduğu kimi, ölkəmizdə də Konstitusiya Məhkəməsi və bu institutu təşkil edən ayrı-ayrı hakimlər konstitusiya nəzarət sisteminin spesifik formasını təmsil edir.*

*Konstitusiya nəzarətinin legitimliyi ilə bağlı əsas məqam bu sistemi təcəssüm etdirən Konstitusiya Məhkəməsi hakimlərinin mövqeyidir. Konstitusiya Məhkəməsi üzvlərinin seçilməsi ilə bağlı legitimlik və demokratiya məsələsinə gəlincə, bütün dünyada tətbiq edilən həll yolu ondan ibarətdir ki, məhkəmə üzvlərinin bir qismi və ya hamısı qanunvericilik məclisi tərəfindən seçilir.*

*Məqalədə konstitusiya nəzarəti institutunun formalaşması, sürətli inkişafı, qlobal tendensiyalarla səsləşməsi araşdırılmışdır. Qeyd olunmuşdur ki, bu gün müxtəlif dövlətlərin inkişafındakı qlobal dəyişikliklər, beynəlxalq təşkilatlarla əməkdaşlıq, həmçinin inteqrasiya prosesləri sayəsində hüquq və qanunvericilikdə ölkələrin milli xüsusiyyətləri, hökumət strukturu və digər şərtlər nəzərə alınmaqla, konstitusiya nəzarəti məsələlərində milli tənzimləmə əhəmiyyətli dərəcədə dəyişmişdir.*

***Açar sözlər:*** *konstitusiya nəzarəti milli kimlik, konstitusion identiklik, konstitusiya məhkəməsi, konstitusiya hüququ*

## GİRİŞ

Bu gün qanunun aliliyi prinsipinə əsaslanan bütün siyasi sistemlər dövlət konstitusiyasının qanunlar və digər hüquqi aktlar qarşısında üstünlüyündən çıxış edir, bu hökmranlığı təmin etmək üçün müxtəlif üsulları, prosedurları və orqanları müəyyənləşdirir. Konstitusiya nəzarəti, ümumiyyətlə konstitusiyanı qorumaq və həyata keçirmək üçün nəzərdə tutulmuş xüsusi məhkəmə hakimiyyətinin institutsionallaşdırılması kimi başa düşülür.

Son bir neçə onillikdə müxtəlif dövlətlər konstitusiyanı məhkəmə və kvazi-məhkəmə orqanları tərəfindən konstitusiya nəzarəti ilə təmin edilmiş ali hüquqi qüvvəyə malik, öz ölkələrinin əsas qanunu kimi müəyyənləşdirmişlər. Bir çox ölkələr (məsələn, Əfqanıstan, Kolumbiya) məhkəmə sisteminin konstitusiya nəzarəti səlahiyyətinə malik olması şərti ilə konstitusiya nəzarətini yaratmışlar. Hətta güclü parlament suverenliyi ənənəsi olan ölkələr (məsələn, Böyük Britaniya və Kanada) konstitusiya nəzarətinin bəzi məhdud formasını qəbul etmişlər. Aleksis de Tokvil konstitusiya nəzarətini

Amerikanın fərqli xüsusiyyəti kimi göstərmişdir [4]. Lakin indiki dövrdə konstitusiya nəzarəti dövlətlərin böyük əksəriyyətinin əsas xüsusiyyətinə çevrilmişdir.

Müxtəlif ölkələrdə hökumətlərin öz güclərini məhdudlaşdırmasının səbəblərini izah edən bir neçə nəzəriyyə vardır. Funksional istiqamətin nümayəndələri qeyd edirlər ki, konstitusiya nəzarəti federalizm, hökumətin müxtəlif qolları arasında koordinasiya və s. kimi idarəetmə problemlərinə cavab olaraq yaranmışdır. İdeasional nəzəriyyənin tərəfdarları qanunun aliliyinin artan əhəmiyyətini vurğulayırlar. XXI əsrin əvvəllərində konstitusiya nəzarətinin ölkədaxili seçki bazarının təsirinin nəticəsi olduğu nəzəriyyəsi meydana çıxmışdır.

## ƏSAS HİSSƏ

Hüquq elmində nəzarət anlayışının və mahiyyətinin müəyyənləşdirilməsinə vahid yanaşma yoxdur. Konstitusiya hüququ elmi dünyada demokratiyanın mövqeyini gücləndirmək baxımından konstitusiya nəzarətinə mühüm əhəmiyyət verir. “Konstitusiya nəzarəti” anlayışının özü “konstitusiya” anlayışı ilə ayrılmaz şəkildə bağlıdır. İnkişaf etmiş konstitusiya nəzarəti sistemi insan hüquqlarının qorunmasına yönəlmiş liberal demokratiyanın xarakterik və məcburi xüsusiyyətidir.

Konstitusiya nəzarətinin mənasının çoxşaxəli şərhi tam nəzəri əsasa malikdir. Alimlər konstitusiya nəzarətinə ehtiyacın təsdiqi və onun mahiyyətinin həyata keçirilməsi üçün vacib üç nəzəriyyəni müəyyənləşdirirlər:

1) Konstitusiyanın təsis hakimiyyəti aktı kimi qəbul edilməsi faktına əsaslanan üzvi, ona uyğun olaraq aşağı hakimiyyət orqanlarının bütün digər aktları da gətirilməlidir;

2) Dövlət orqanları üçün müəyyən edilmiş “oyun qaydaları”na institusional uyğunluq;

3) Təbii hüquq nəzəriyyəsi və ya sosial müqavilə nəzəriyyəsi idarə edənlər və idarə olunanlar üçün qaydaların müəyyən edilməsində konstitusiyanın aparıcı rolu ilə bağlı mövqeyi aktuallaşdırır [2].

Bütün bu nəzəriyyələr bir-birini qarşılıqlı şəkildə tamamlayaraq konstitusiya nəzarətinin rolunu və əhəmiyyətini, onun konstitusionalizm strukturunda zəruriliyini düzgün qiymətləndirməyə və müəyyən etməyə imkan verir.

Alimlərin əksəriyyətinin fikrincə, konstitusiya nəzarəti Qədim Yunanıstanda yaranmışdır. M. Nudel qeyd edir ki, qanun layihələrinin qəbulu və ya rədd edilməsi “qrafe paranomon” proseduru vasitəsilə baş verə bilərdi. Afina konstitusiyasının mühafizəsi xüsusi məhkəmə yolu ilə həyata keçirilmişdir. “Qrafe paranomon”un mahiyyəti ondan ibarət olmuşdur ki, hər bir Afina vətəndaşının belə bir bəyanat vermək hüququ var: xalq yığıncağının qəbul etdiyi qanun mövcud qanunvericiliyə ziddir və ya müəyyən edilmiş qayda pozulmaqla qəbul edilmişdir. Müvafiq ərizə daxil olduqdan sonra mübahisələndirilən qanunun icrası dayandırılmış, xüsusi palata şikayətin araşdırılmasına başlamışdır [8]. Şikayətin əsaslı olduğu aşkar edilərsə, ədalətsiz qanun ləğv edilmiş, onun müəllifi vətəndaşlar arasında çaşqınlıq yaratdığına görə məsuliyyətə cəlb edilmişdir.

Konstitusiya nəzarəti institutunun yaranması XVII əsrə təsadüf edir. Bəzi tədqiqatçılaırn fikrincə, ümumən qəbul edilən və müasir məhkəmə nəzarətinin əsas mənbələri kimi göstərilən ilk presedentlər Britaniya konstitusiya praktikasında meydana çıxmışdır. Digər qrup alimlər bu qənaətdədirlər ki, Konstitusiya nəzarətinin müasir forması Amerika Birləşmiş Ştatlarında formalaşmışdır. Birləşmiş Ştatlar müstəqillik əldə etməmişdən əvvəl Britaniyanın müstəmləkəsi olduğu üçün ABŞ-nin hüquq sistemi də İngiltərə hüquq sisteminə bənzəmişdir.

M.Petinanın fikrincə, Amerikada konstitusiyanın ilk tərtibçiləri bu ali qanunun nəzarətetmə funksiyasını açıq şəkildə nəzərdə tutmamışlar. Bununla belə, federal məhkəmələrin bu sahədə müəyyən səlahiyyətlərə malik olması ilə bağlı təcrübə inkişaf etmişdir [4].

ABŞ-də konstitusiya nəzarətinin yaranması Aleksandr Hamilton, Ceyms Medisson və Con Ceyin adı ilə bağlıdır. 1787-ci ildə ABŞ-nin konstitusiyası qəbul edildikdən sonra "Federalist" qəzetində konstitusiyanın postulatlarına və konstitusiya nəzarətinin zəruriliyinə həsr edilmiş esselər dərc edilmişdir. Bu, konstitusiya nəzarətinin zəruriliyi ilə bağlı mövqenin formalaşmasında başlanğıc nöqtəsi hesab olunur.

1787-1803-cü illərdə Nyu-Cersi ştatında, ardınca digər ştatlarda bəzi qanunlarının konstitusiyaya zidd olması ilə bağlı 20-dən çox qərar qəbul edilmişdir. ABŞ-də konstitusiyaya nəzarət ümumi yurisdiksiya məhkəmələri tərəfindən həyata keçirilir.

Tarixi məxəzlərdən məlum olduğu kimi, Amerika ştatları hər biri öz konstitusiyasını müxtəlif zamanlarda qəbul etmişlər. Sonradan onların mətnlərinə xeyli sayda düzəlişlərin edilməsinə baxmayaraq, hələ də qəbul edildikləri zamanın siyasi məqsəd və tələblərinin təsirini əhəmiyyətli dərəcədə əks etdirirlər.

Bəzi elmi ədəbiyyat nümunələrində müəlliflər Amerikanın ştatlarına məxsus konstitusiyalarının müxtəlif xüsusiyyətlərini səciyyələndirirlər:

1) tez-tez dəyişkənlik;
2) konstitusiyalara əlavə və dəyişikliklərin sadələşdirilmiş qaydası;
3) əksər konstitusiyaların əhəmiyyətli həcminin olması;
4) onların daxili strukturuna xas olan mürəkkəblik;
5) konstitusiya müddəalarının həddindən artıq təfərrüatlılığı [5].

Ştatların əvvəlki konstitusiyalarına yenidən baxılması və yenilərinin hazırlanması adətən ştatın konstitusiya konvensiyaları tərəfindən həyata keçirilmiş və layihə daha sonra seçicilər tərəfindən ratifikasiya olunmaq üçün referenduma çıxarılmışdır. Konstitusiya konvensiyaları seçicilərin razılığı ilə əyalət qanunverici orqanları tərəfindən yaradılır.

Amerika sistemini digər dövlətlərdən, o cümlədən Avropa ölkələrindən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, konstitusiya nəzarətinin həyata keçirilməsi bütün məhkəmə aparatına həvalə olunur və konstitusiya ədaləti ümumi ədalət mühakiməsindən ayrı deyil, çünki mahiyyətindən asılı olmayaraq, bütün işlər eyni məhkəmələr tərəfindən və mahiyyətcə eyni şəraitdə həll edilir.

ABŞ-də məhkəmə yolu ilə konstitusiya nəzarəti dörd əsas xüsusiyyətlə səciyyələndirilir:

1) Birincisi, konstitusiya nəzarəti universal xarakter daşıyır. Bu, təkcə qanunları deyil, həm də hökumətin bütün səviyyələrində olan normativ aktları və dövlət sərəncamlarını əhatə edir. Məsələn, hüquq normalarının məcburi iyerarxiyasının hər hansı pozulması və ya heç bir hüquqi əsası olmayan hərəkət konstitusiyaya zidd elan edilə bilər.

2) İkincisi, konstitusiyaya nəzarət qeyri-mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Başqa sözlə desək, o, vaxtaşırı həyata keçirilir, məqsədyönlü xarakter daşıyır və hüquqi vətəndaşın toxunduğu istənilən işə baxılarkən istənilən məhkəmə tərəfindən həyata keçirilə bilər. Bununla belə, nəzarət heç də əhatəli xarakterini itirmir. Çünki konkret halda federal qanunların konstitusiyaya uyğunluğu yoxlanıla bilər, həm də ayrı-ayrı ştatların normativ aktlarının bu ştatların konstitusiyalarına, habelə ştatların özlərinin aktlarının federal qanunlara uyğunluğu da yoxlanıla bilər.

3) Üçüncüsü, konstitusiyaya uyğunluğun yoxlanılması səbəb-nəticə əlaqəsinə malikdir, yəni bu, yalnız Konstitusiyaya istinadın göründüyü konkret işə baxıldıqda, məsələn, bir tərəf digər tərəfin tələblərinin konstitusiyaya zidd normanın fəaliyyətinə əsaslandığına inandıqda mümkündür. Məhkəmə bu məsələ ilə bağlı öz rəyini bildirməyə və müvafiq olaraq, göstərilən iddianın mahiyyəti üzrə məsələni həll etməyə borcludur. Beləliklə, konstitusiya problemi məhkəmə prosesi zamanı həll olunan digər problemlər arasında, sanki məhkəməyə tabe olan, köməkçi məsələ kimi ortaya çıxır.

4) Dördüncüsü, konstitusiyaya uyğunluğa nəzarət nisbi xarakter daşıyır, çünki məhkəmə qərarları yalnız mübahisə edən tərəflər üçün məcburidir və hüquq-mühafizə fəaliyyətinin bütün subyektlərinə şamil edilmir. Məhkəmələr hüquq normasının konstitusiyaya zidd olduğunu qəbul edərək, onu mövcud olmayan kimi şərh edir və mübahisənin mahiyyəti üzrə müvafiq qərar qəbul edərkən onu nəzərə almırlar. Lakin belə bir norma ümumi əhəmiyyətə malik norma kimi xüsusi qeyd olunmur.

Konstitusiya nəzarətinin ABŞ modeli birmənalı olaraq, digər ölkələrdə konstitusiya müdafiəsi prosedurlarına təsir göstərmişdir. Amerika təcrübəsi bir çox ölkələrdə yaxından öyrənilir, lakin heç bir yerdə Amerika modeli tam olaraq təmiz formada mənimsənilməmişdir.

Fransada konstitusiya nəzarəti institutunun yaradılması zərurəti məsələsi ilk dəfə Böyük Fransa İnqilabı zamanı qaldırılmışdır. 20-ci əsrin əvvəllərində Amerika konstitusiya ədalət mühakiməsi modelini Fransa hüquq sisteminə tətbiq etmək üçün real imkanlar yaranmışdır. IV Respublika dövründə bir çox cəhətdən müasir Fransa Konstitusiya Şurasının prototipinə çevrilən Konstitusiya Komitəsi təsis edilmişdir.

Fransa parlamentləri özlərini milli maraqların qanuni himayədarı hesab etdikləri üçün kralın qanunvericilik səlahiyyətlərindən istifadəsinə nəzarət etməyə çalışırdılar. Praktikada bu nəzarət parlamentlərin kralın qanunvericilik aktlarını qeydiyyatdan keçirməkdən imtina etməsi və bununla da onlara hüquqi qüvvə verilməsinin qarşısını alması ilə ifadə olunmuşdur.

Mütəxəssislərin göstərdiyi kimi, Fransada konstitusiya nəzarəti Maarifçilik dövründə müəlliflərinin konstitusiya quruluşunun və dəyərlərin potensial keşikçiləri kimi məhkəmə orqanlarının fəaliyyətinə mənfi münasibətinin təsiri altında formalaşmışdır.

Bu nöqteyi-nəzərdən, konstitusiya nəzarəti institutunun qanunverici tərəfindən tanınması Yeni Dövr dövlətinin təşkilinin fundamental prinsiplərinin həyata keçirilməsinə təhlükə yaratmışdır: hakimiyyətlərin və suverenliyin (xalq, milli və ya dövlət) bölünməsi. Məhz buna görə də, konstitusiya nəzarətinin Avropa modelinin meydana çıxması zaman və rasionalizmi və müdrik qanunvericiyə inamı ilə Maarifçilik dövründən hüquqşünas alimlərə miras qalmış klassik hüquq və dövlət anlayışlarının sərt çərçivələrindən kənara çıxmağı tələb etmişdir.

Birinci Dünya müharibəsindən sonra Avropa öz konstitusiya nəzarət modelini işləyib hazırlamışdır. Bu model hazırda digər qitələrə, xüsusən də keçmiş SSRİ ölkələrinə yayılmağa başlamışdır. Avropa modelinin ideyası 1920-ci ildə Avstriyanın Federal Konstitusiya Qanununun hazırlanmasında iştirak edən və sonra Avstriya Konstitusiya Məhkəməsinin üzvü olmuş avstriyalı hüquqşünas Hans Kelsenə məxsusdur [3]. Onun konsepsiyası təcrübədə öz praktiki əhəmiyyətini təsdiqləmiş, bu günədək aktual olaraq qalmışdır. Kelsen qeyd etmişdir ki, qanunların konstitusiyaya uyğunluğuna nəzarət etmək üçün nəzərdə tutulmuş belə demək mümkünsə, Konstitusiya Tribunalının yaradılması hakimiyyət bölgüsü nəzəriyyəsinə tam uyğundur.

Konstitusiya nəzarətinin yaranması üçün bəzi ilkin şərtlər tələb olunur:

1) Yazılı konstitusiyanın mövcud olması;
2) Qanuni hakimiyyətin mövcudluğu;
3) İyerarxik tabeli qanunvericilik orqanlarının olması;
4) Hüquqların bəyan edilməsi və ya qanunvericiliyin ümumi prinsiplərinin təsbiti [8].

Nə Fransız, nə də Amerika modeli digər region və ölkələr üçün universal olaraq tətbiq oluna bilməz: mlli xüsusiyyətlər nəzərə alınmadan xarici hüquqi institutların mexaniki şəkildə köçürülməsi cəhdləri ciddi zərər verə bilər. Məsələn, bir sıra Latın Amerikası ölkələrində konstitusiya nəzarətinin prezident idarəetmə formasını (ABŞ modeli əsasında) tətbiq etmək cəhdləri nəticəsiz qalmışdır.

Amerika modelinin bəzi Avropa dövlətləri tərəfindən qəbul edilməməsinin səbəblərindən biri də Avropa konstitusiyalarının mətnlərinin kifayət qədər sərt olmamasıdır.

Yuxarıda deyilənlərə əsasən, konstitusiya nəzarətini səlahiyyətli dövlət orqanlarının ictimai funksiyaların və konstitusiya normalarının həyata keçirilməsində iştirak edən dövlət və yerli özünüidarəetmə orqanlarının normativ xarakterli aktları ilə hərəkətləri arasında uyğunsuzluqların yoxlanılması, müəyyən edilməsi, müəyyən edilməsi və aradan qaldırılması üzrə fəaliyyəti kimi müəyyənləşdirilir. Hesab edirik ki, konstitusiya nəzarəti anlayışı nəzarət orqanının konstitusiyaya zidd aktı ləğv etmək hüququ ilə bağlıdır ki, bu da öz növbəsində yol verilmiş pozuntulara görə konstitusiya məsuliyyətinin qoyulması kimi qiymətləndirilə bilər.

## MİLLİ (KONSTİTUSİON) KİMLİYİN QORUNMASI

Milli kimliyi təşkil edən dəyərlərə adətən konstitusiya-hüquqi əhəmiyyət verilir və müvafiq hüquqi müdafiə verilir, buna görə də konstitusiyaşünaslar “konstitusiya kimliyi” anlayışından istifadə edirlər. P.Bloxinin qeyd etdiyi kimi, "milli kimlik" fenomeni bir tərəfdən konstitusiya normala-

rında, yazılmamış prinsiplərdə, məhkəmə doktrinalarında, şifrlənmiş xalqın mədəni kodu, digər tərəfdən konstitusiyanın dəyişdirilməsi çətin olan hissə və müddəaları kimi başa düşülə bilər [7]. Konstitusiya identikliyi "konstitusiyanın özünəməxsusluğuna dəlalət edən əsas keyfiyyətidir" [9].

Bəzi alimlər konstitusiya nəzarətinin bütün dünyada yayılmasını "siyasi diffuziya" nəzəriyyəsi ilə izah edirlər. Konstitusiya hüququ nəzəriyyəsində konstitusiya nəzarəti institutunun sürətlə yayılmasını izah edən müxtəlif fikirlər meydana çıxmışdır. Bu nəzəriyyənin məğzi ondan ibarətdir ki, nə qədər çox ölkə konstitusiya nəzarətini qəbul etsə, digər ölkələrin də ona əməl etmə ehtimalı bir o qədər çox olar.

Konstitusiya nəzarəti yarandığı ilk müddətdən etibarən əksər ölkələrdə onu adətən Ali Məhkəmə və ya ümumi yurisdiksiyaya aid olan başqa bir məhkəmə həyata keçirmişdir. Konstitusiya məhkəməsi İkinci Dünya müharibəsindən sonra əhəmiyyət qazanmağa başlamışdır. O, konkret mübahisələri həll edən digər məhkəmə orqanlarından onunla fərqlənir ki, onun əsas məqsədi konstitusiyanı və konstitusiya quruluşunu qorumaqdır.ilən, qanunun aliliyini reallaşdıra bilən struktur nümayiş etdirmişdir. Digər tərəfdən, konstitusiya məhkəmələri demokratiyanı və insan azadlıqlarını qorumağı və bu anlayışların işlək olmasını təmin etməyi öhdələrinə götürürlər. Türkiyəli tədqiqatçıların qeyd etdiyi kimi, "Konstitusiya Məhkəməsi mücərrəd mübahisələrə baxan, hüquq normalarını obyektiv izah edən məhkəmə orqanıdır. İnsan hüquqlarına əsaslanan dövlətin demokratik quruluşunu qorumaq da onun üzərinə düşür. Konstitusiya Məhkəməsi bu vəzifələri dövlətin müsbət qanunlarına və cəmiyyətin hüquqi dəyərlərinə uyğun olaraq yerinə yetirir" [1].

Bu gün Azərbaycan Respublikası, Türkiyə, Almaniya, Fransa, İtaliya, Rusiya, Braziliya kimi dövlətlərdə konstitusiya nəzarəti Konstitusiya məhkəmələrinin simasında öz milli identikliyini göstərir.

**YEKUN NƏTİCƏ**

Aparılan araşdırma və yuxarıda qeyd olunanlara əsasən qeyd edirik ki, XX əsrin ikinci yarısından etibarən, xüsusilə son onilliklərdə konstitusiya nəzarəti bütün dünyada sürətlə yayılmışdır. Fikrimizcə, konstitusiya nəzarətinin belə geniş şəkildə qəbul edilməsi həm də daxili siyasi proseslərə reaksiya ilə bağlıdır. Qeyd etmək lazımdır ki, konstitusiya nəzarəti problemlərinə beynəlxalq problem statusu vermək, dövlətlərə dəstək göstərmək meylləri son vaxtlar konstitusiya nəzarətinin formalaşdığı sələflərin təcrübəsinə əsaslanaraq, cəmiyyətin diqqətinin artması konstitusiya nəzarəti qarşısında qoyulan vəzifələrin mümkün qədər səmərəli şəkildə həllinə kömək edir.

Beləliklə, aparılmış tədqiqatlar göstərir ki, konstitusiya-hüquqi tənzimləmə konstitusiyanın aliliyinin təmin edilməsinin, konstitusiya nəzarəti zamanı şəxsin konstitusiya hüquq və azadlıqlarının tam təmin edilməsinin, qorunmasının ən səmərəli yollarının tapılmasına yönəlmişdir.

Hazırda bir çox ölkələrin milli qanunvericiliyində öz konstitusiyasının, konstitusiya quruluşunun, konstitusiya dəyərlərinin, insan hüquq və azadlıqlarının aliliyini yeni müstəvidə təmin etməyə imkan verən yeni normalar meydana çıxır. Zənnimizcə, bütün bu dəyişikliklər yeni qlobal transformasiyaların, ümumiyyətlə elmi-innovativ texnologiyaların inkişafı fonunda konstitusiya nəzarətinin daha çox möhkəmlənməsinə səbəb olacaq.

Mövcud konstitusiya nəzarəti modellərinin təhlili göstərir ki, dünya ölkələrinin əksəriyyətində müxtəlif mərhələlərdə Amerika, Avropa və parlament konstitusiya nəzarəti modelləri fəaliyyət göstərmişdir.

## ƏDƏBİYYAT

1. Fanid, N.A., Aykut Z. Anayasa Yargısı ve Uygunluk Denetimi // Sosyal Bilimler Araştırmaları Dergisi, 2015, № 3 (1), - s. 51-76.
2. Beibitov, M.S., Taitorina, B.A., Baisalova, G.T., Azretbergenova, I.Zh. Legal field of the institution of constitutional review: past and present // Bulletin of Karaganda University, 2020, № 98 (2), - p. 13-23.

3. Dossayeva, A.A. Some Historical Aspects of The Establishment and Development of The Constitutional Control Institution // Herald. JOURNAL of Actual Problems of Jurisprudence of Al-Farabi Kazakh National University, 2017. № 4 (84), - p. 39-43.
4. Petina, M.M. Formation and development of the institution of constitutional control // Matters of Russian and International Law, 2017. № 7, Issue 2A, - p. 46-56.
5. Zaretskaya, M.G. The history of the formation and development of constitutional control in foreign countries // Matters of Russian and International Law, 2021, № 11 (8A), - p. 15-23.
6. Балакаев, В.Д. Национальная идентичность против международного права: анализ практики органов конституционного контроля // Антиномии, 2024, № 3 (24), - с. 131-155.
7. Блохин, П.Д. Судебная доктрина конституционной идентичности: генезис, проблемы, перспективы // Сравнительное конституционное обозрение, 2018. № 6, - с. 62-81.
8. Петина, М.М. Конституционный контроль во Франции и США: сравнительно-правовое исследование. Диссертация на соискание ученой степени кандидата юридических наук. Саратов, 2017, - 220 с.
9. Шустров, Д.Г. Конституционная идентичность и изменение конституции // Вестник Московского университета, 2020, Серия 11: Право № 4, - с. 21-49.

## FORMATION OF THE INSTITUTE OF CONSTITUTIONAL CONTROL AS A MANIFESTATION OF NATIONAL IDENTITY IN THE SPHERE OF INTERNATIONAL LAW

**I.E. Mammadli**

As a rule, the values that constitute national identity are given constitutional and legal significance. They are provided with appropriate legal protection, which is why constitutionalists use the concept of “constitutional identity”. This phenomenon can be understood, on the one hand, as the cultural code of a nation, encrypted by constitutional norms, unwritten principles, legal doctrines, and, on the other hand, as sections and provisions of the constitution that are difficult to change. Based on this, one of the important manifestations of the national identity of states is the activity of constitutional control bodies.

In the modern world, constitutional control, the main goal of which is to protect democracy and human rights and ensure their functionality, is a system and institution of global significance. The specificity of this system at the country level is manifested in the body authorized to exercise constitutional control, as well as in the specific persons authorized to exercise the powers granted to this body. From this point of view, as in many European countries, the Constitutional Court and the individual judges who are part of this institution represent a specific form of constitutional review system in our country.

The main point to be emphasized regarding the legitimacy of constitutional review is the position of the judges of the Constitutional Court, who personify this system. As regards the question of the legitimacy and democratic nature of the elections of members of the Constitutional Court, the solution applied throughout the world is that some or all members of the court are elected by the legislative assembly.

The article examines the formation of the institution of constitutional control, its rapid development and compliance with global trends. It is noted that today, in connection with global changes in the development of various states, cooperation with international organizations, as well as integration processes, national regulation in matters of constitutional control has changed significantly, taking into account the national characteristics of countries, state structure and other conditions in legislation.

**Keywords:** *constitutional control, national identity, constitutional identity, constitutional court, constitutional law*

# СТАНОВЛЕНИЕ ИНСТИТУТА КОНСТИТУЦИОННОГО КОНТРОЛЯ КАК ПРОЯВЛЕНИЯ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ В СФЕРЕ МЕЖДУНАРОДНОГО ПРАВА

**И.Э. Мамедли**

Как правило, ценностям, составляющим национальную идентичность, придается конституционно-правовое значение. Им обеспечивается соответствующая правовая защита, поэтому конституционалисты используют понятие «конституционная идентичность». Это явление можно понимать, с одной стороны, как культурный код нации, зашифрованный конституционными нормами, неписаными принципами, юридическими доктринами, а с другой стороны, как разделы и положения конституции, которые трудно изменить. Исходя из этого, одним из важных проявлений национальной идентичности государств является деятельность органов конституционного контроля.

В современном мире конституционный контроль, главной целью которого является защита демократии и прав человека, обеспечение их функциональности, представляет собой систему и институт мирового значения. Специфика этой системы на уровне страны проявляется в органе, уполномоченном осуществлять конституционный контроль, а также в конкретных лицах, уполномоченных осуществлять полномочия, предоставленные этому органу. С этой точки зрения, как и во многих европейских странах, Конституционный суд и отдельные судьи, входящие в этот институт, представляют собой в нашей стране специфическую форму системы конституционного контроля.

Главный момент, который следует подчеркнуть в отношении легитимности конституционного контроля, – это позиция судей Конституционного суда, которые олицетворяют эту систему. Что касается вопроса легитимности и демократичности выборов членов Конституционного суда, то во всем мире применяется решение, согласно которому некоторые или все члены суда избираются законодательным собранием.

В статье рассматривается становление института конституционного контроля, его стремительное развитие и соответствие мировым тенденциям. Отмечено, что сегодня в связи с глобальными изменениями в развитии различных государств, сотрудничеством с международными организациями, а также интеграционными процессами национальное регулирование в вопросах конституционного контроля существенно изменилось с учетом национальных особенностей стран, государственного устройства и других условий в законодательстве.

**Ключевые слова:** *конституционный контроль, национальная идентичность, конституционная идентичность, конституционный суд, конституционное право*